# Nəciblik və xeyirxahlıq missiyası

Bu gün qadınların cəmiyyətdə rolu əvəzsizdir. Xüsusilə son illər aparılan uğurlu islahatlar nəticəsində qadınların cəmiyyətdə ictimai-siyasi fəallığı durmadan artır. Elm və təhsil sahəsində, eləcə də səhiyyə və mədəniyyət müəssisələrində, sənaye və kənd təsərrüfatının müxtəlif sahələrində çalışan qadınların sayı günü-gündən artır. Qadınların cəmiyyətdə daha da fəal olmaları, aparıcı mövqe tutmaları üçün dövlətimiz əlindən gələni edir.

Respublikamızda vətəndaş cəmiyyəti quruculuğunda, insan hüquq və azadlıqlarının daha geniş mənada bərqərar olmasında, eləcə də səhiyyə sahəsində uğurların, yeni-yeni nailiyyətlərin qazanılmasında əvəzsiz əməyi olan qadınlardan biri də Lətafət Məmməd qızı Əlizadədir.

1942-ci il dekabr ayının 27-də Gəncə şəhərində ziyalı ailəsində anadan olmuş Lətafət Əlizadə 1949-cu ildə Krupskaya adına Gəncə şəhər məktəbinin 1-ci sinfinə getmiş, 1959-cu ildə məktəbi müvəffəqiyyətlə bitirmişdir. Həmin ildə Gəncə tibb məktəbinə daxil olmuş, 1963-cü ildə məktəbi əla qiymətlərlə bitirmişdir. 1963-cü ildə Azərbaycan Tibb Universitetinin müalicə və profilaktika fakültəsinə daxil olmuş, 1968-ci ildə ali təhsilini başa vurmuşdur. Bundan sonra Lətafət xanım Gəncə şəhərində 1 saylı doğum evində həkim-ginekoloq kimi fəaliyyətə başlamış, bir müddət sonra Ana və Uşaq Mühafizə İnstitutunda kiçik elmi işçi təyin olunmuş, həkim mama-ginekoloq işləmişdir. 1989-cu ildən Yasamal rayon 2 saylı qadın məsləhətxanasında həkim mama-ginekoloq vəzifəsində çalışan Lətafət xanım öz nəcib peşəsinin öhdəsindən ləyaqətlə gəlmişdir. İşə başladığı ilk gündən öz xeyirxahlığı, nəcibliyi, xəstələrə xoş rəftarı ilə seçilən Lətafət Əlizadə uzun illərdir ki, vətəndaşların sağlamlığının qorunması və tibbi xidmətin yaxşılaşdırılması istiqamətində səmərəli fəaliyyət göstərir. Səhiyyə sahəsində əldə etdiyi nailiyyətləri ilə yanaşı, ictimai-siyasi sahədə də uğurlar əldə etmiş Lətafət xanım Yasamal rayon 2 saylı qadın məsləhətxanasının əmək veteranları komitəsinin sədri, Yasamal rayon Ağbirçəklər İctimai Birliyi İdarə Heyətinin üzvü, 2006-cı ildən Ədliyyə Nazirliyində qeydiyyatdan keçən "Səhiyyə və Sağlam Həyat" İctimai Birliyinin sədridir. Lətafət xanım 1992-ci ildən 1999-cu ilə kimi Təhsil Nazirliyinin tələbə və müəllimlərin xeyriyyə fondunda sədr müavini işləyib. 2000-ci ildən 2005-ci ilə kimi Xeyriyyəçi Qadınlar Cəmiyyətinin sədr müavini olub. 2006-cı ildən isə cəmiyyətin sədridir. Lətafət Əlizadə həmçinin Müharibə Veteranlarının, Beynəlmiləl Hərbçilər İctimai Birliyinin ehtiyatda olan fəxri baş leytenantıdır. 1993-cü ildə ilk təyyarəçi qadın Dürrə xanımla ehtiyatda olan veteran zabit Şuriyyə Əlizadə ilə blokadada olan Naxçıvan Muxtar Respublikasında, döyüş bölgələrində — Tərtərdə, Ağdərədə, Murov yüksəkliyində, Füzulidə, Tovuzda, başqa hərbi hissələrdə əsgərlərimizə tibbi yardım göstərən Lətafət xanımı əsgərlərimiz unutmurlar. Bu qeyrətli vətən qızı öz bilik və bacarığını heç kəsdən əsirgəməmiş, həmişə əsgərlərimizin sağlamlığını qorumuş, milli bayramlarımız ərəfəsində həbsxanalarda bir çox yardımçı təşkilatların köməkliyi ilə məhbuslara tibbi yardım göstərmişdir.

Lətafət xanım "Səhiyyə və Sağlam Həyat" İctimai Birliyinin 7 il sədri olduğu müddət ərzində Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə 6 böyük layihə həyata keçirmişdir. O, tez-tez ayrı-ayrı telekanallarda, kütləvi informasiya vasitələrində sağlam həyat tərzinin təbliğ edilməsi, ətraf mühitin sağlamlaşdırılması, kəskin yoluxucu xəstəliklərin profilaktikası, maarifləndirmə sahəsi ilə bağlı çıxışlar edir. Lətafət xanımın dövri mətbuatda çoxsaylı məqalələri və bukletləri çap olunub. O, 2004-2008-ci illərdə Bakı şəhəri Baş Səhiyyə İdarəsinin tapşırığı ilə ildə iki dəfə 4 nömrəli Qadın Təcridxanasında məhbusların müayinəsini aparmış, bu müayinəni 2009-cu ildə Azərbaycan Respublikası Qadınlar Komitəsi ilə birlikdə yerinə yetirmişdir.

Nəcib və xeyirxah insan, gözəl həkim, əsl vətəndaş olan Lətafət xanım daim insanların sağlamlığı keşiyində dayanır. Nəciblik və xeyirxahlıq missiyası ilə hamıya nümunə olmağa çalışır. Biz də qabaqcıl səhiyyə işçisi, fəal ictimaiyyətçi Lətafət xanım Əlizadəyə yeni-yeni uğurlar arzulayırıq.

**Zülfüqar ŞAHSEVƏNLİ,**
**"Respublika".**